## ÇAYLAR

**1. Araz çayı – Araks.**

Türkiyə, İran, Azərbaycan və Ermənistan əraziləri və sərhədləri ilə axan çay, Arazın sol qolu. Öz mənbəyini Türkiyə ərazisində Ərzurum dağlarından götürən çay Sabirabad şəhəri yaxınlığında Suqovuşan adlanan ərazidə Kür çayı ilə birləşib Xəzər dənizinə taxır.

**3. Arpaçay çayı – Axuryan.**

Araz çayının sol qolu. Arpa gölündən bağlayan çay Sərdarabad mahalı ərazisində Hacı Bayram kəndi yaxınlığında Araza tökülür.

**3. Zəngi çayı – Hrazdan.**

Araz çayının sol qolu. Başlanğıcını Göyçə gölündən götür çay İrəvan şəhərindən, Zəngibasar mahalından keçib Araz çayına tökülür.

**4. Ağstafaçay çayı – Aqstev.**

Kür çayının sağ qolu. Uzunluğu 133 km, hövzəsinin sahəsi 2500 kv. km-dir. Başlanğıcını Kiçik Qafqazın şimal-şərq hissəsində, Pəmbək sıra dağlarından götürür.

**5. Gərni çayı – Azad.**

Arazın sol qolu. Başlanğıcını Göyçə dağ silsiləsindən alan çay Gərnibasar mahalı ərazisində Araza tökülür. Uzunluğu 34 km-dir.

**6. Bazarçay çayı – Vorotan.**

Uzunluğu 178 km, hövzəsinin sahəsi 2711 $km^2$-dir. Başlanğıcını Zəngəzur silsiləsinin şimal yamacından, 3040 m yüksəklikdə yerləşən Zalxa gölündən götürür.

**7. Tona çayı – Debed.**

İndiki Ermənistan və Gürcüstan ərazilərindən axan çay. Rus mənbələrində tarixi Borçalı mahalının adı ilə **Borçalı çayı** adlanırdı.

**8. Oxçuçay çayı – Voxçi.**

Azərbaycan və Ermənistan ərazilərindən axan çay. Arazın sol qolu. Ermənistan Qafan rayonu və Azərbaycanın Zəngilan rayonu ərazisindən keçir. Uzunluğu 85 km, hövzəsinin sahəsi 1140 $km^2$-dir. Başlanğıcını Zəngəzur silsiləsinin Qapıcıq dağından götürür.

**9. Cəlaloğlu çayı – Dzoraget.**

Qərbi Azərbaycanın Loru mahalında çay, Tona çayının sol qolu.

**10. Tərsaçay çayı –Гетик.**

Ağstafa çayının sol qolu. Başlanğıcını Göyçə dağlarından götürür, uzunluğu 58 km-dir.

**11. Ələyəz çayı – Yeğegis.**

Dərələyəz mahalında çay. Arpa çayının sağ qolu. Uzunluğu 49 km-dir.

**12. Qaranlıq çayı – Martuni.**

Göyçə mahalının Qaranlıq rayonu ərazisində çay. Uzunluğu 42 km-dir.

**13. Qarasu çayı– Sevcur.**

Arazın sol qolu. Uzunluğu 40 km, hövzəsinin sahəsi 1610 kv. m-dir.

**14. Basarkeçər çayı – Vardenis.**

Göyçə mahalının Basarkeçər rayonunda çay. Uzunluğu 28 km-dir.

**15. Gorus çayı – Qoris.**

Zəngəzur mahalında çay. Uzunluğu 29 km-dir.

**16. Balıqlı – Dzknaget**

Göyçə gölünə şimal-qərbdən tökülən çay.

**17. Bəsitçay – Tsav.**

Araz çayının sol qolu. Mənbəyini indiki Ermənistan Respublikasından götürür. Çayın uzunluğu 44 km-dir.

**18. Əyənzur çayı – Ağavnadzor.**

Dərələyəz mahalında çay. Arpa çayının sağ qolu.